*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

# Yeni YOL

15 MAY 2022-Cİ İL

№ 009 (156)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## ASSOSİASİYA RƏHBƏRİ: GÜRCÜSTANIN TAXIL EHTİYATI TÜKƏNİB



“Gürcüstanın taxıl ehtiyatı faktiki olaraq tükənib və yaxın günlərdə dəyirmanlarda iş dayanacaq”. Bunu Gürcüstan Taxıl və Un İstehsalçıları Assosiasiyasının rəhbəri Levan Silqava “İnterpressnyus”a müsahibəsində bildirib.

O, bildirib ki, artıq bir neçə aydır ölkəyə buğda əvəzinə un idxal olunur.

“Bu gün taxıl ehtiyatları faktiki olaraq tükənib. Gürcüstan qanunlarına əsasən, un idxalına vergi yoxdur, ancaq bir ton taxıla 120 dollar vergi tələb olunur”, - L.Silqava deyib.

Gürcüstanın Çörək Məmulatları İstehsalçıları Assosiasiyasının direktoru Malxaz Dolidze isə Gürcüstanın iki aylıq un ehtiyatı olduğunu, buna görə də çörək istehsalının təhlükə altında olmadığını bildirib.

Onun sözlərinə əsasən, kəskin qiymət artımına görə Gürcüstana buğda idxal edilmir: “Lakin bəzi unüyüdən müəssisələr un tədarük edirlər və bu tendensiya buğdanın qiyməti sabitləşənə qədər saxlanılacaq”.

Məsələyə münasibət bildirən Gürcüstanın kənd təsərrüfatı nazirinin müavini Giorgi Xanişvili deyib ki, un idxalı avtomatik olaraq buğda ehtiyatının azalmasına gətirib çıxarıb.

O bildirib ki, Gürcüstan əhalisinin ucuz çörək əldə etməsi üçün hökumət ucuz unun idxalını asanlaşdırıb və ölkədə un ehtiyatı ilə bağlı problem mövcud deyil.

Nazir müavini qeyd edib ki, ölkədə hər hansı bir qida məhsulu ilə bağlı qıtlıq yoxdur: “Gürcüstan istənilən ərzaq məhsulu ilə təmin olunur, hər hansı bir qida məhsulunun defisiti ilə bağlı əlamət müşahidə edilmir”.

Qeyd edək ki, Gürcüstan ildə 650 min ton taxıl istehlak edir. Ölkə bu ehtiyacın 15 faizini ödəyir, qalan hissəsinin çoxunu Rusiyadan idxal edir.

## GÜRCÜSTAN Aİ-YƏ ÜZVLÜKLƏ BAĞLI SORĞU VƏRƏQƏSİNİ TƏŞKİLATA TƏHVİL VERİB



Gürcüstan Avropa İttifaqına (Aİ) üzvlüklə bağlı sorğu vərəqəsinin birinci və ikinci hissəsini təşkilata təqdim edib.

Sənədləri mayın 2-si və 10-u Baş nazir İrakli Qaribaşvili Aİ-nin Gürcüstandakı səfiri Karl Hartzelə təhvil verib.

Qeyd edək ki, Gürcüstan Aİ-yə tamhüquqlu üzvlüklə bağlı rəsmi müraciəti 2024-cü ildə etməyə hazırlaşırdı. İ.Qaribaşvili bu il martın 3-də üzvlüklə bağlı müraciət imzalayıb. Gürcüstan sorğu vərəqəsini aprelin 11-də təhvil alıb.

## MASKADAN İSTİFADƏ YALNIZ İCTİMAİ NƏQLİYYAT VƏ TİBBİ MÜƏSSİSƏLƏRDƏ MƏCBURİDİR



Mayın 2-dən etibarən qapalı məkanlarda qoruyucu maskadan istifadə tələbi yumşaldılıb. Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili hökumətin iclasında bildirib.

Onun sözlərinə görə, maskadan istifadə yalnız ictimai nəqliyyat və tibbi müəssisələrdə məcburidir.

Baş nazir ölkədə epidemioloji vəziyyətin sabit olduğunu qeyd edib.

Səh. 2 İSTEDADIN RƏNGİ - Azər Musaoğlu yazır

Səh. 3 BİRLİK RUHU - Hacı Bəkiroğlu yazır

Səh. 4 MÜƏLLİMLƏR ÜÇÜN QANUNDA DƏYİŞİKLİK EDİLİB

Səh. 5 MƏN VƏ BİZ FƏRQLİ ÇƏRÇİVƏDƏ - Esmira Ələkbərli yazır

Səh. 5 QIZLARIN HÜQUQLARI - Tünzalə Əliyeva yazır

Səh. 5 NƏSİHƏT - Eliza yazır

Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze

Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN ÜMUMİ SAYI 16 811 NƏFƏRDİR

Mayın 15-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin ümumi sayı 16 811 nəfər təşkil edib. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 1 655 221 nəfər, sağalanların ümumi sayı isə 1 637 293 nəfər olaraq göstərilib.

Mayın 15-nə kimi ölkədə ümumi olaraq 2 882 587 nəfər COVID-19 əleyhinə peyvənd olunub. Stasionar nəzarət altında saxlanılanların sayı isə 286 nəfər olaraq göstərilib.

Qeyd edək ki, Səhiyyə Nazirliyinin məlumatına əsasən, Gürcüstanda koronavirusla bağlı rəsmi statistik məlumatlar gündəlik şəkildə artıq dərc olunmayacaq. Bundan sonra COVID-19 infeksiyasına yoluxma, sağalma və ölümlə bağlı göstəricilər çərşənbə axşamı olmaqla həftədə bir dəfə ümumiləşdirilərək açıqlanacaq.



# İSTEDADIN RƏNGİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

"İstedadlılara kömək edin, istedadsızlar özlərinə yol açacaqlar" deyimi təkcə kömək etmək, əl tutmaq, yol göstərmək, dəstək durmaq haqqında deyil, eyni zamanda, istedadlı insanlarla istedadsız insanların xarakteri – istedadlıların utancaqlığı, qapalılığı, təvazökarlığı; istedadsızların isə utanmazlığı, sırtıqlığı, həyasızlığı, arsızlığı haqqındadır.

İstedadlı bir insan görüb ona kömək etməmək istedad öldürməyə bərabərdir və o adamlar sənətin məhşər günü "tarix və tale" *(ifadə Aqşin Yeniseyindir)* qarşısında lüt-üryan sorğu-suala çəkiləcəklər. Axı istedadı görmək, duymaq da hər adamın işi deyil, bunun üçün də bəsirətli olmalısan. "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?!" *(Qurani-Kərim).* Buna görə də bütün məsuliyyət bilənlərin üzərinə düşür.

Çox giley-güzar edirik ki, uşaqlar, gənclər təhsillə, sənətlə, idmanla maraqlanmırlar. Biz, ümumiyyətlə, həmişə beləyik, bir nəfər çalır, hamı da ona züy tutur. Soruşan olmur ki, bəs bu uşaqlar, gənclər hansı təhsillə, hansı sənətlə, hansı idmanla harada və necə maraqlana bilərlər?! Təhsil keyfiyyətsiz, sənətlə idman da uzaqlarda. Axı bu uşaqlara, bu gənclərə dərs əzbərlətməklə onlardan hansı marağı tələb edirik? Axı bu şəhərdə bir dənə də olsun incəsənət dərnəyi yoxdur, idmanımız şəhərin inzibati ərazi dairəsindən kənara çıxmır...

Hansı haqla bu uşaqlardan, bu gənclərdən Bethoven, Şopen, Mikelancelo, Pikasso, Pele, Mariya Küri olmalarını tələb edirik. Öz yaşadıqları zamanı demirəm, adını çəkdiyim bu dahilər indiki zamanda bu şəhərdə yaşasaydılar ya 9-cu sinifdən çıxarılıb zorla evləndiriləndilər, ya da qazanc dalıyca Rusiyaya, Türkiyəyə, Polşaya getmiş olardılar. Dünya da "Ay işığı", "Doqquzuncu simfoniya", "Noktürnlar", "Valslar" və digər gözəl musiqi nümunələrindən, "Pyeta", "David" kimi heykəltəraşlıq şedevrlərindən, "Avinyonlu qızlar", "Gernika" və bir-birindən gözəl və mənalı rəsm əsərlərindən, ən gözəl vurulmuş qollardan, radium və polonium elementlərinin kəşfindən məhrum olardı. Bu dahilərin həyatları ilə tanış olduqda çoxunun valideynləri tərəfindən dəstəkləndiyini, keyfiyyətli təhsil aldığını, dövlət və cəmiyyət tərəfindən sayğı gördüklərini öyrənmiş oluruq. Bizdə isə sayğının kimlərə göstərildiyini hamımız çox yaxşı bilirik.

Sözümün Mustafası budur ki, bu uşaqlarla, bu gənclərlə yaxından tanış olduqda onların arasında istedadlı, potensiallı uşaqların, gənclərin olduğunu mütləq görmüş olarıq. Sadəcə olaraq, o istedadı, potensialı üzərə çıxarmaq üçün, göstərmək üçün onlara diqqət sərgiləmək, imkan vermək, onları dinləmək, fikirlərini öyrənmək, yazılarını oxumaq, rəsmlərinə baxmaq, səslərini dinləmək yetər.

Təəssüf ki, bu gün bu istedadlı, bacarıqlı uşaqların, gənclərin özlərini ifadə etmələri, öyrənib inkişaf etmələri üçün bu boz şəhərdə nə rəsm, nə musiqi və digər yaradıcılıq dərnəkləri, məktəbləri var. Axı uğurlu pianoçu olmaq üçün mütləq pianoda ifa etməyi öyrənməkdən başlamalısan və ya kimyaya marağı və bilikləri mütləq orta məktəbdə 6-ci, 7-ci dərs saatına salınaraq tədris olunmayan kimya fənnindən almalısan.

Sonra da giley-güzar edirik ki, uşaqlar, gənclər təhsillə, sənətlə maraqlanmırlar, əyri yola düşürlər, pis vərdişlərə qurşanırlar. Uşaqlar da, gənclər də hər şeylə maraqlanırlar. Heç özümüzə sual verməşikmi: bəlkə maraqsız olan bizik, maraqsız olan ömrünü cehiz almağa həsr edən valideyndir, maraqsız olan dərsi sadəcə əzbərlətdirən müəllimdir, maraqsız olan marağı pul, maşın, ev, vəzifədən ibarət cəmiyyətdir, maraqsız olan çayxanalardan və qumarxanalardan ibarət bu boz şəhərdir – istedadlarını məişət bataqlığı kimi dərininə çəkərək boğub öldürən bataqlıq şəhər.

"İstedad öz-özlüyündə rəngsizdir və yalnız tətbiq ediləndə rəng alır" *(Saltıkov-Şedrin).* Bu boz şəhərə rəng qatmaq üçün istedadlılara hər cür dəstək olmaq, əlimizdən gələn köməyi əsirgəməməliyik.

# GÜRCÜSTANDA 173 İKİNCİ DÜNYA MÜHARİBƏSİ VETERANINDAN 11-İ AZƏRBAYCANLIDIR



Gürcüstanda 9 May - Qələbə Gününün 77-ci ildönümü qeyd edilib. Gürcüstanın hökumət və dövlət rəsmiləri Tbilisidəki Vake parkında yerləşən Qələbə Memorialı Kompleksi və Naməlum Əsgərin xatirə abidəsi önünə əklil və gül dəstələri qoyub, müharibə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Faşizm üzərində qələbəyə həsr olunmuş bayram tədbirində iştirak edən Baş nazir İrakli Qaribaşvili, parlamentin sədri Kaxa Kuçava veteranları təbrik ediblər. Baş nazir bəzi yaşlı veteranları evlərində ziyarət edib.

Qeyd edək ki, İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə Gürcüstandan 700 minədək insan iştirak edib. Onlardan 300 mini müharibədə həlak olub. İştirak edənlər və həlak olanlar sırasında çoxlu sayda azərbaycanlı olub.

**Bu gün Gürcüstanda 173 İkinci Dünya müharibəsi veteranı var, onların 11-i azərbaycanlıdır. Veteranların ən yaşlısının 103 yaşı var.**

Gürcüstan hökumətinin qərarı ilə Böyük Vətən müharibəsi veteranlarına 1000 lari, həlak olmuş veteranların ailə üzvlərinə isə 500 lari birdəfəlik yardım edilib.

# ÖLKƏDƏ GÜNDƏLİK TƏLƏBAT MƏHSULLARININ QİYMƏTİ ARTIB




Gürcüstanda inflyasiyasının səviyyəsi artıb. Bu da müvafiq olaraq ölkədə gündəlik tələbat mallarının qiymətinin artmasına səbəb olub.

Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, aprel ayında illik inflyasiya 12,8 faiz, mart ayı ilə müqayisədə isə 1,8 faiz təşkil edib. Qida məhsulları və alkoqolsuz içkilərin qiyməti 21,3 faiz, su, elektrik enerjisi və təbii qazın qiymətləri 9,4 faiz artıb. Yalnız son bir ayda geyim əşyaları 4,9 faiz, nəqliyyat xərcləri 3,7 faiz, qida məhsulları və alkoqolsuz içkilərin qiyməti 3,3 faiz bahalaşıb. İl ərzində isə bahalaşma daha çox olub.

İllik müqayisədə tərəvəz və bostan məhsulları 42,6 faiz, çörək və çörək məmulatları 28,8 faiz, alkoqolsuz içkilər 24,1 faiz, günəbaxan yağı və piy yağları 20,8 faiz, qənd, mürəbbə və digər şirniyyat məhsulları 19,3 faiz, balıq məhsulları 18,9 faiz, süd, pendir, yumurta 18,0 faiz, kofe, çay, kakao 17,6 faiz, meyvələr isə 14,4 faiz bahalaşıb. Ət və ət məhsullarının qiymətində isə 109 faiz artım qeydə alınıb.

# GÜRCÜSTAN MÜDAFİƏ QÜVVƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ NATO-NUN QURU QOŞUNLARI KOMANDANLIĞI İLƏ GÖRÜŞÜB



Gürcüstan Müdafiə Qüvvələrinin nümayəndələri Türkiyənin İzmir şəhərində NATO-nun Quru Qoşunları Komandanlığı (LONDCOM) ilə görüşüb.

Sayca üçüncü olan görüşdə Gürcüstan-NATO münasibətləri, Cənubi Qafqazda və Qara dəniz hövzəsində vəziyyət, təhlükəsizlik məsələləri diqqət mərkəzində olub.

Gürcüstan ilə NATO arasında mövcud olan tərəfdaşlıq münasibətlərinin inkişafının vacibliyi, eləcə də Gürcüstanın təşkilat üçün önəmli ölkə olduğu vurğulanıb.

## TÜRKİYƏ SƏFİRİ AŞIQ NARGİLƏ MEHTİYEVA İLƏ BİRLİKDƏ MƏDƏNİYYƏT KOMİTƏSİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞÜB

Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan tanınmış aşıq Nargilə Mehtiyeva ilə birgə Gürcüstan parlamentində görüş keçirib.



Parlamentin Mədəniyyət komitəsinin rəhbəri Eliso Bolkvadze ilə keçirilən görüşdə Türkiyə və Gürcüstan arasında mədəniyyət sahəsində əməkdaşlıq müzakirə olunub.

Bildirilib ki, Gürcüstan-Türkiyə diplomatik əlaqələri və dostluq münasibətləri haqqında sənədli filmin hazırlanması planlaşdırılıb və birgə yaradılacaq ekran əsəri ilə bağlı yaxın zamanlarda layihə yazılacaq.

Qeyd olunub ki, Batumi Beynəlxalq Musiqi və İncəsənət Festivalı çərçivəsində iki ölkə arasında diplomatik əlaqələrin bərpasının 30-cu ildönümünə həsr olunacaq gecə təşkil ediləcək. Tərəflər Nargilə Mehtiyevanın da mərasimə cəlb olunması imkanlarını müzakirə ediblər.

## GÜRCÜSTAN PARLAMENTİNİN SƏDR MÜAVİNİ AZƏRBAYCAN SƏFİRİ İLƏ GÖRÜŞÜB



“Gürcüstan-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi və hər iki tərəfdən daha yüksək səviyyəyə çatdırılması çox vacibdir”. Bunu Gürcüstan parlamentinin sədr müavini Levan İoseliani Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyevlə görüşdən sonra deyib.

Onun sözlərinə görə, görüşün əsas mövzusu iki ölkə arasında strateji tərəfdaşlıq məsələləri olub.

“Biz strateji münasibətlərimizin əsasına çevrilən və hələ Eduard Şevardnadzenin prezidentliyi dövründə reallaşdırılmasına başlanılan layihələri xatırladıq. Gürcüstandakı azərbaycanlı qardaşlarımızla və təbii ki, Azərbaycan xalqı ilə münasibətlərimizin ölkələrimizin layiq olduğu səviyyəyə yüksəldilməsi üçün əlimdən gələni edəcəyəm”, - deyə L.İoseliani bildirib.

## TÜRKİYƏ SƏFİRİ: “ƏHMƏD CAVAD YARADICILIĞINI TÜRKİYƏDƏ DAHA ÇOX TANITMAQ LAZIMDIR”

“Əhməd Cavad yaradıcılığını Türkiyədə daha çox tanıtmaq lazımdır”. Bunu mayın 5-i Tbilisidə Əhməd Cavadın anadan olmasının 130-cu ildönümünə həsr olunan tədbirdə iştirak edən Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan deyib.



Səfir qeyd edib ki, Türkiyədə azərbaycanlı şairin yaradıcılığı kifayət qədər tanınmır: “Bəli, biz onun “Çırpınırdı Qara dəniz” və “Gəncədən gəlirəm” şeirlərini bilirik. Amma onun bir çox əsərləri Türkiyə məktəblərində öyrədilmir. Düşünürəm ki, bu gün şairin Ankarada açılan heykəli çoxdan ucaldılmalı idi”.

Onun sözlərinə görə, *“Əhməd Cavad elə bir şəxsiyyətdir ki, Qafqazda birləşdirici rol oynayıb və hələ də bu coğrafiyada körpü rolunu oynayır. O, dünya müharibəsi dövründə müstəqillik uğrunda savaşmış bir əsgər, diplomat, mütəfəkkir, tərcüməçi, fikir öndəri olub. Bəlkə də çətin zamanlar güclü adamları yetişdirir. Əhməd Cavad gördüyü işlər və qoyduğu mirasla hələ də körpü rolunu oynayır”.*

F.C.Yazqan tədbirdə Ə.Cavadın həyat və yaradıcılığının Gürcüstan dövrü ilə bağlı yeni məlumatlar əldə etdiyini söyləyib: *“Onun “Pələng dərisi geymiş pəhləvan” əsərini Azərbaycan dilinə tərcümə etdiyini bilirdim. Bu gün Gürcüstandakı Azərbaycan icması böyük şairin yaradıcılığını təbliğ etməklə çox böyük iş görüb. Bunun da önəmini anlamaq lazımdır”.*

Xanım səfir Ə.Cavadı bir diplomat kimi incələmək istədiyini qeyd edərək, şairin yaradıcılığı və əsərləri ilə mütləq daha yaxından tanış olacağını bildirib.

*Mənbə: report.az*

## BİRLİK RUHU



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

*“Yıxılanın əlindən tut ki, yıxılanda tutacaq əl tapa biləsən”*
*Ali Fuat Başgil*

Daxildən və xaricdən gələ biləcək təhlükələrdən qorunmaq və sağlam bir cəmiyyət halında davam edə bilmək fərdlərin bir-birinə kömək etməsi ilə təmin oluna bilər. Hər cür yardım həmin cəmiyyətin möhkəm dayanmasını təmin edəcək. Bir-birinə kömək etməyən, öz mənafeyini və mənfəətini düşünərək hər zaman başqalarından üz döndərən fərdlərdən ibarət olan cəmiyyətlər bağları qırılan təsbehin daşlarının töküldüyü kimi dağılmağa məhkumdur.

Cəmiyyətdə yaşamalı olan insan heç vaxt bütün ehtiyaclarını təkbaşına ödəyə bilməz. Hər nə qədər əlində olan imkanlarla zəruri ehtiyaclarını ödəsə də, sonda mütləq başqalarından kömək istəməli olacaq.

Birlik ruhunda başqalarına kömək etmək düşüncəsi verdiyi bəzi faydalarla birlikdə sosial həyatın təməlini də təşkil edir. İctimai həyatın tərəqqisində böyük rolu olan yardımlaşma hissi hərtərəfli mənimsənilib tətbiq olunarsa çox faydalı nəticələr verər.

Yardımlaşma həmişə cəmiyyətin rifahına, tərəqqisinə xidmət edəcək işlərə yönəlməli, ona xeyir verə biləcək işlərdə görülməlidir. Əks halda, cəmiyyətin strukturunu sarsıdacaq, onu uçuruma sürükləyən məqsədlər güdmək nəzərdə tutduğumuz mənada olarsa bu, yardımlaşma deyil, mövcud nizamı məhv etmək deməkdir. Bəzi mənfi cərəyanlarda ilişib qalanlar, bilərəkdən və ya bilməyərəkdən onu müdafiə edən və ona xidmət edənlər cəmiyyəti xeyirdən çox zərərə sürükləyirlər. Bu davranış nə dini, nə də əxlaqi baxımdan qəbuledilməzdir.

Quranda “...Yaxşılıq və təqvada yardımlaşın! Günah və düşmənçilikdə isə yardımlaşmayın!..” *(Maidə, 2)* buyurulur. Dinimiz bu əmrlə bizi cəmiyyəti gücləndirmək üçün yardıma və xidmətə dəvət edir. Yaxşılıq etməkdə və pislikdən çəkinməkdə bir-birinizə kömək edin deməklə iman gətirənlərin faydalı işlər görmələrini istəyir.

Ehtiyac sahiblərinin ehtiyaclarını ödəmək şəklində ortaya çıxan yardımlaşma ictimai həyatda bir çox müxtəlif formalarda istifadə edilə bilər. Məsələn, bilməyənə öyrətmək, yol bilməyənə yol göstərmək, ac olanı doyurmaq, xəstəni müalicə etmək və ya etdirmək və s. Yardımlaşmanın ictimai həyatda ən məşhur forması həyatını davam etdirmək üçün zəruri şeylərə sahib olmayan və bunları qarşılayacaq güc və ya imkandan məhrum olan kəslərin ehtiyacını qarşılama formasında ortaya çıxmaqdadır. Bunun isə ən uyğun yolu maddi olaraq yardım etməkdir.

Artıq bir neçə ildir ki, cəmiyyətimizdə formalaşan xeyirxah və yardımlaşma əməlləri müsbət yöndə öz nəticəsini verməkdədir. Yaxşı yadımdadır, bir neçə il öncə Qardabani rayonunun İstisu kəndindən olan rəhmətlik Knyaz Əliyevin müalicəsi üçün böyük bir həmrəylik meydana gəldi və cəmi bir neçə ay ərzində lazım olan miqdardan belə artıq vəsait toplandı. Bu yardımsevərlik millətimizin ruhuna yerləşdi və beləliklə bir neçə gəncimizi Allahın yardımıyla xilas etməyə yönəldi.

Son günlərdə aldığımız xoş xəbərlərdən biri də beta talassemiya xəstəliyindən əziyyət çəkən 2 yaşlı Dəniz balanın sağalması üçün ehtiyac duyulan məbləğin lazımından da artıq toplanması oldu. Bu da yardımsevər xalqımızın çəkdikləri əziyyətlərə baxmayaraq qazandıqları cüzi miqdardan ayıraraq verdikləri yardımlar sayəsində oldu.

Əziz millətimiz, indi isə Qardabani rayonunun Kosalı kəndindən olan Seymur Xəmmədovun sizin yardımlarınıza ehtiyacı var. Gənc qardaşımızın 2 il bundan əvvəl keçirdiyi avtomobil qəzasında onurğa sütunu ciddi zədələnib, buna görə də o, həmin gündən ayağa dura bilmir.

Türkiyəli həkimlər onun əməliyyatla ayağa qalxmasına tam zəmanət verir, lakin bunun üçün 50 min dollara ehtiyac var. Seymurun ailəsi tələb olunan məbləği qarşılaya bilmədiyinə görə siz yardımsevər vətəndaşlardan kömək istəyirlər.

Əziz millətimiz, gəlin əl-ələ verib Seymur qardaşımıza da dəstək olaq. Onun hələ çox arzuları, çox ümidləri var. Bu arzuların, ümidlərin yaşıllaşmasına, kök atmasına dəstək olaq.

## YALNIZ 15 MİN MÜƏLLİM HAZIRLIQ GÖRÜB – AUDİT XİDMƏTİNİN QALMAQALLI NƏTİCƏSİ




**Dövlət Audit Xidməti ümumi təhsil sisteminin ictimai məktəblərdə distant təhsilin effektiv keçirilməsini nə dərəcədə təmin etdiyini müəyyən etmək üçün audit yoxlaması aparıb. Yoxlama nəticəsində prosesin effektivliyinə təsir göstərən çatışmazlıqlar aydın olub:**

• Ölkə miqyasında distant təhsil üçün şagirdlərin müəyyən qisminə lazımi resurslar – kompüter və internet əlçatan deyil. Nazirlik belə şagirdlərin sayı barədə dolğun məlumata malik deyil.

• Nazirlik distant təhsil üçün vasitələrdən biri olaraq “Microsoft Teams” platformasından istifadə edib. Platfromanın lisenziyasının alınmasına 2019-cu ildə başlanılıb. 2021-ci ilin 30 sentyabrına olan vəziyyətə görə, şagirdlərin bonus lisenziyanı mənimsəmə göstəricisi aşağı – 42 %, müəllimlərin və inzibati heyətin mənimsəmədiyi pullu lisenziyaların göstəricisi 17,5 % və 10 % olub. Lisenziyaların sayının müəyyən edilməsi, fəallaşdırılması planı və monitorinq mexanizmlərinin az olduğu şəraitdə resursdan qeyri-məhsuldar istifadə riskləri yaranır.

• 2017-ci ildən 2021-ci ilin iyuluna qədər ictimai məktəblərdə işləyən müəllimlərin 42 %-i informasiya texnologiyaları istiqamətində həyata keçirilmiş treninq-modullara qoşulmayıb. Mərkəz 2017-ci ildən kompüter bacarıqlarını inkişaf etdirmək üçün müəllimlərin hazırlığına başladı. Baxmayaraq ki, pandemiyaya qədər 15 000 müəllim informasiya texnologiyaları üzrə hazırlanmışdı. Bu isə müəllimlərin 27 %-ni təşkil edir.

• Distant təhsilin formalarından biri kimi “Teleməktəb” təhsil layihəsindən istifadə edildi. Həmin layihə məktəb müəllimləri üçün milli tədris planı ilə müəyyən edilmiş standart və proqrama əsasən teledərslərin keçirilməsini nəzərdə tutur. Teleməktəbin dərsləri milli tədris planı ilə müəyyən edilmiş bütün vacib fənləri əhatə etmir. Müvafiq olaraq yalnız teleməktəblə təhsil alan şagirdlər konkret dərslərdə dərs prosesindən kənar qala bilərlər.

• Regionlara əsasən “Teleməktəb” layihəsi çərçivəsində yalnız televiziya vasitəsilə təhsil alan şagirdlərin sayı barədə məlumat toplanır. Ancaq layihəni həyata keçirən qurumlar teleməktəbin izlənməsi barədə tam və yaxın statistikaya malik deyil. Bu isə proqramın qiymətləndirilmə və monitorinq prosesinə mane olur.

• Nazirlik fövqəladə vəziyyət zamanı həyata keçiriləcək tədbirləri nəzərdə tutan fəaliyyət planı hazırlamayıb. Plan olarsa gələcək hadisələr təhsil sisteminə daha az ziyan vurar. Həmçinin təhsil sistemində pandemiyanın uzunmüddətli təsirlərinin və distant təhsil nəticələrinin potensial təsirinin qiymərləndirməsini təmin edəcək proses tətbiq edilməyib. Audit qrupu tərəfindən aparılmış sorğudan görünür ki, pandemiyanın qısamüddətli effektləri şagirdlərin nəticələrinə mənfi təsir göstərib. Bundan əlavə, müxtəlif araşdırmaların nəticələri də mənfi təsirlərin olduğunu göstərir. Bu, fövqəladə planın hazırlanmasının əhəmiyyətini diqqətə yetirir.

• Dağlıq regionlarda və uzaq aran kəndlərində müəllim çatışmazlığının aradan qaldırılması məqsədilə “Gürcüstan üçün öyrət” proqramı və “distant təhsil” alt-proqramı həyata keçirilir. Həmin proqramlar mövcud çatışmazlığı doldurmurlar. Mərkəzin məlumatına görə, 2018-2021-ci illərdə 309 müəllim vakansiyası müxtəlif səbəblərdən dolmadı. Bu çatışmazlığın təsiri ilə 2018-2021-ci illərdə, müxtəlif tədris ilində hər hansı fənn üzrə təxminən 15 000 şagirdin müvafiq təhsil ala bilməməsi riski var.

• “Gürcüstan üçün öyrət” və “distant təhsil” ümumi məqsədə, dağlıq regionlarda müəllim çatışmazlığının aradan qaldırılmasına xidmət göstərir. Ancaq təhsil forması fərqlidir. “Distant təhsil” alt-proqramının həyata keçirilməsi təxminən 4-4,5 dəfə daha az maliyyə resursu ilə mümkündür və bu proqram daha çox çatışmayan kadr tapa bilər. Bu isə regionlara ixtisaslı kadrların göndərilməsinin mümkün olmadığı halda şagirdlərin təhsilə əlçatanlığını artırır. Müəyyən edilən vəziyyət və çatışmazlıqlarla bağlı Dövlət Audit Xidməti tövsiyələr verib. Həmin tövsiyələri nəzərə almaqla, prosesin təsiri və məhsuldarlığı artacaq.

## EKSKURSİYALARLA BAĞLI 5 QADAĞA – MƏKTƏBLƏR NƏYİ NƏZƏRƏ ALMALIDIR

Gürcüstanın Təhsil Nazirliyi məktəb ekskursiyalarına icazə verib. Buna baxmayaraq, ekskursiyalarla bağlı məktəblərə ətraflı təlimat göndərilib və məktəb ictimaiyyətinin nümayəndələri həmin şərtləri mütləq nəzərə almalıdırlar.

**Təhsil Nazirliyinin ekskursiyalarla bağlı qadağaları isə bunlardır:**

1. Ekskursiya zamanı həddi-büluğa çatmamış şəxslər çay ərazisinə aparılmamalıdır;
2. Su anbarı ərazisinə getmək qadağandır;
3. Şagirdləri təhlükəli və müdafiəsiz ərazilərə aparmaq olmaz;
4. İki və daha artıq günlük ekskursiyalar yolverilməzdir;
5. Məktəbdən 150 km-dən uzağa getmək qadağandır.

## MÜƏLLİMLƏR ÜÇÜN QANUNDA DƏYİŞİKLİK EDİLİB



Müəllimlərin hazırlığı və peşəyə yiyələnməsi asanlaşır. Müəllim hazırlığı üçün 60 kreditdən ibarət ali təhsil proqramını keçənlərin ümumtəhsil müəssisələrində konkret fənn və ya fənlər qrupunu tədris etmək hüququ olacaq. Parlament ali təhsil haqqında qanunda dəyişikliyi artıq təsdiq edib.

Layihəni Təhsil və Elm Komitəsinin sədri Giorgi Amilaxvari təqdim edib.

Dəyişikliyə əsasən, bakalavr pilləsinin tələbələrinə təhsil aldığı müddət ərzində müəllim hazırlığı proqramını seçmək və keçmək hüququ olacaq. Təhsili başa vurduqdan sonra isə seçdiyi ixtisasın bakalavr diplomu ilə yanaşı müəllim işləmək hüququnu da qazanacaq.

Komitə sədrinin açıqlamasına görə, bununla müəllimin qısa zamanda hazırlanması mümkün olacaq.

Qeyd olunan dəyişiklik müxtəlif fənn qrupu müəllimlərinin hazırlanmasını nəzərdə tutur.

## TƏHSİLİN MALİYYƏLƏŞDİRİLMƏSİ QAYDASINDA DƏYİŞİKLİK EDİLİB

Yeni qərara əsasən, tələbələrin maliyyələşdirilməsi qaydasında dəyişikliklər edilib. Dəyişikliyə əsasən, sosial müdafiəsiz tələbələrlə yanaşı çoxuşaqlı ailədən olanların da təhsil haqqı maliyyələşdiriləcək. Həmçinin uğurlu tələbələrin təhsil haqlarının da maliyyələşdirilməsi nəzərdə tutulur.

Fiziki imkanları məhdud və çoxuşaqlı ailə üzvü olan tələbələrin təhsil haqqı tələbənin əvvəlki rübdə aldığı qiymətlərə və akademik balların orta arifmetik göstəricilərə əsasən ödəniləcək. Maliyyələşdirmə bir il ərzində ən çox 2 250, bir rüb ərzində isə 1 125 lari olacaq.

Bunun üçün sosial müdafiəsiz, fiziki imkanları məhdud və çoxuşaqlı ailə üzvü olan tələbələr Tbilisi meriyasının Mədəniyyət, Təhsil, İdman və Gənclərin İşi üzrə Şəhər Xidmətinə ərizə ilə müraciət edə bilərlər.

***Ərizələrin qəbul müddəti xidmət rəhbərinin sərəncamı ilə müəyyən ediləcək. Ərizə ilə yanaşı aşağıdakı sənədlər də təqdim olunmalıdır:***

a) Şəxsiyyət vəsiqəsinin və ya pasportun surəti;

b) Sosial müdafiəsiz tələbələr “Sosial müdafiəsiz ailələrin vahid baza göstəricilərindən” arayış, fiziki imkanları məhdud olan və çoxuşaqlı ailə üzvü olan tələbələr isə müvafiq inzibati qurumdan statusu təsdiq edən arayış təqdim etməlidirlər;

c) Ali təhsil müəssisəsindən arayış. Arayış tələbənin statusu və illik ödəmə haqqında məlumatdan ibarət olmalıdır;

ç) Ali təhsil müəssisəsindən tələbənin əvvəlki rübdə keçdiyi fənlər və qiymətləndirmə haqqında verilmiş akademik iştiraketmə göstəricisi/arayış;

d) Məcburi köçkün, qaçqın olanlar səlahiyyətli inzibati qurumdan müvəqqəti qeydiyyat yeri haqqında sənəd təqdim etməlidirlər;

e) Ali təhsil müəssisələrinin bank rekvizitləri/hesabat fakturası;

ə) Səlahiyyətli inzibati qurumdan Tbilisi bələdiyyəsində qeydiyyat haqqında arayış.

***Səhifədəki məlumatlar “etaloni.ge” saytından götürülüb.***
***Gürcü dilindən tərcümə etdi: Aynurə ƏLİYEVA***

# Mən və biz fərqli çərçivədə



Həyatı anladığımız gündən iki seçim arasında olmuşuq: mənim və bizim. Hələ uşaq təfəkkürümüzlə bağrımıza basdığımız oyuncağa mənim, evimizə bizim dedik. Həyat bizi bərkə-boşa atdıqca bizimkilər uzaqlaşdı, mənimkilər yaxınlaşdı. Getgedə mənim olanları düşündük, bizimkiləri özümüzə möhtac qoyduq. Elə hamı hamıya ümidli olarkən özümüzdən başqa heç nəyi düşünmədiyimizin şahidi olduq. Bizim olanlar birdən elə mənim olarmış ki. Bəlkə də illərlə haqqında belə düşünmədiyin, indi sənin üçün ölüm-qalım nəticəsində imiş sən demə.

Bəzən cılız, diqqətdən kənarda olan bir gəncin ağlasığmaz qəhrəmanlığı dastan yaradır. Dağında, meşəsində gəzərkən, suyunu içib, havasını udarkən, dünya mənim deyərkən gözləmədiyin halda başın üstünü alan qara bulud içindəki yatmış MƏNİ oyadır və hiss edirsən ki, sənin varlığın elə bizim olanla ölçülürmüş – ölərəm, amma BİZİM olan heç nəyi yağıya verməram deyərək hayqırırsan. Bax, budur o müqəddəs hiss, yatmış şirin oyanışı və nərəsi. Buna Vətən deyirlər!

O qədər çətin izahata ehtiyacı olan bir ifadə ki, kimsə – Vətən nədir? – sualına olduğu kimi cavab verə bilməz. Təbii ki, söhbət şablon, əzbərlənmiş cümlələrdən getmir. İçindən anında gələn cümlədən danışıram. Vətən müxtəlif zamanlarda mühitə görə dəyişir. Məsələn, qürbətdəkilər üçün bir həsrət məkanı, kasıblar üçün şükranım, ehtiyacsızlar üçün ərazi, bəlkə pis təsvir oldu, amma gördüyümüz budur.

Tarix varkən həmişə müharibələr olub, qəhrəmanlar olub, fərarilər də. Qəhrəman bizimdir deyib döyüşüb, heç nəyi düşünmədən. Filmlərdən, bədii əsərlərdən yaxın tariximizin – İkinci Dünya müharibəsi zamanı müxtəlif yollarla müharibədən yayınan insanların vicdanı necə rahat olurdu deyə düşünərkən, lap yaxın tarixdə – Birinci və İkinci Qarabağ müharibəsində yüzlərlə könüllüləri və yayınanları demirəm, onların fədakarlıqlarını hörmətsizcəsinə qiymətləndirən məmurları gördükcə VİCDANSIZ anlayışının necə də əbədi köhnəlmədiyinin şahidi olursan.

Qələbə sədası yaxınlaşdıqca "papalarının gül balaları" əcnəbi arabalarında səs-səsə verdikcə qaloşlu şəhid ataları, gözləri yaşlı "Fəxr edirəm oğlumun şəhid adıyla" deyən anaları xatırlayıram. Hansı ki, bu övladlar VƏTƏN BİZİMDİR dedilər. Vətənin nübarını papa balaları qədər dadmasalar da onlar əsl qəhrəmandırlar. Deməli, bizim və mənim məfhumu özündə bir müharibə, ərazi təcavüzü gizləyir! Müharibələri şeytan seçimi hesab edirəm, çünki fərqli zamanlarda gəlir, millətlərin, ölkələrin seçilmişlərini, gen fondunu aparır. Qalır Vətəni də, mənliyi də, insanlığı da MƏNƏM deyənlər. Müharibələr də bir dəyişən sivilizasiyadır – vicdan təzələnməsi. Hər təzələndikcə insanlıq məhv olur. Ona görə deyirlər ki, köhnə kişilər qoçaq atları köklədilər getdilər. Ona görə şərəf ucuzlaşır. Ona görə vicdan itir. Yəni yaxşı insan olmaq üçün, bizləri seçmək üçün mütləq müharibələrmi lazım? Olmazmı illərlə mənəviyyatın cücərtdiyi şərəf, ləyaqət insanlığa sərf olunsun... Son zamanın müharibələri nə qədər can aldı. Şeytan oyunu bizi bizdən alır.

Vətən-müharibə bir-biriylə nə əks mənası, nə yaxınlığı yoxkən bunların birlikdə etmədikləri qalmadı. Tamahkar padşah vəzirinə məndən varlısını tap gətir deyərkən, çoban məntiqlə məni apar, varlı mənəm demişdi. Qoyunlarıyla özünü padşah zənginliyinə tay tutması istehzayla qarşılansa da, "Padşahım, mənim boyum səndən azca uzun, deməli kəfənim artıq olacaq. Apardığımız bu olacaq" deyibmiş. Bax, padşahı süküta qərq edən bu rəvayətin tarixi əsrlər olsa da BƏŞƏRİYYƏT yaradıcısı insan oğlu hələ də qan tökür. Bizim olanları Mənim çərçivəsinə sıxışdırmağa çalışır. Olmazmı hər şey bizim olsun, onsuz da mənim olan elə dünyada qalır.

Nənələr demiş, dünya qan ağlayır. Kimlərsə hakimiyyət, hökmranlıq sevdasında varkən neçə ocaq sönməsi, kədərli gözlər, insan fəryadı – bu, onların vicdanını oyatmır. Hər gün neçə-neçə qeyrətli, fədakar gəncin həyatına son qoyulur. Onlar Bizim deyə özlərini ölümə atarkən yalnız VƏTƏN sevgisini düşünürlər, amma kaş müharibə sevdalıları millimetr fərqiylə aparacaqları kəfənlərini də xatırlayaydılar. Onu da unutmayaq ki, urvatlı ölüm də hər adama nəsib olmur. İdarəedicilərin başı o qədər qarışıb ki, daha çobanları da dinləmirlər. Dünyanı hər şey mənimdir deyənlərin nəfsi məhv edəcək.

Nolar ki, hamımız eyni gözlə baxardıq həyata. Bir istiqamətdən baxsaq dünya necə gözəldir. Təbiət insana insan təbiətə yaraşır. Quşların cəh-cəhi, suların şırıltısı, körpə qığıltısı – yəni bu gözəllikləri partlayışlara dəyişmək olarmı?

*Allah sizə insaf versin.*

**Esmira ƏLƏKBƏRLİ**
Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi

## QIZLARIN HÜQUQLARI



Günümüzdə uşaqların fikirlərinə önəm verilmir, əsasən də qız uşaqlarının. Oğlan uşaqlarını daha üstün tuturlar, çünki oğlanlar ailənin varisidir. Qızlara qarşı isə pis rəftar edirlər, şiddət göstərirlər və sair. Qızlara sevgi göstərmək, onların özəl olduğunu hiss etdirmək üçün xüsusi günlərə ehtiyac yoxdur. Onlara hər gün, hər zaman yüksək dəyəri vermək lazımdır. Çünki qadın evin günəşidir. Qadın gözəldir. Qadın gözə görünən yeganə mələkdir.

Böyüklərin olduğu kimi uşaqların da öz hüquqları var: yaşamaq hüququ, təhsil almaq hüququ, əylənmək hüququ, istədiyi dini seçmək hüququ və s. Ancaq günümüzdə bəzi qız uşaqları istədikləri həyatı yaşaya bilmirlər: istədikləri yeri gəzə, istədikləri kimi danışıb-gülə, istədikləri kimi əylənə bilmirlər, hətta istədikləri peşəni seçə bilmirlər. Çünki buna bəzi valideynlər icazə vermirlər.

Məsələn, bir qız modelyer və ya moda dizayneri olmaq istəyirsə, valideyn buna qarşı olar, icazə verməz, çoxlu suallar yağdırar: Nə üçün bu peşəni seçirsən? Qohum-qonşu bizə nə deyər? Bu sənin nəyinə lazımdır? Sən hara, modelyerlik hara? Sən get müəllim ol, həkim ol, mühəndis ol, aşpaz ol... Bəzənsə suallar əvəzinə qızlarına şiddət göstərirlər: sən qızsan, oxumaq, gəzmək sənin nəyinə lazımdır... Nəticədə isə psixoloji təsir edirlər və bəzən qızlar sevgisizlikdən, şiddətdən özlərinə qəsd edirlər, yaxud da özlərinə xətər yetirirlər. Səbəbi isə – MƏN QIZAM.

Qızlar istədikləri paltarı da geyinə bilmirlər – açıq olmaz, gödək olmaz. İstədikləri vaxt dostları ilə görüşüb əylənə bilmirlər. Qızlar bir söz deyəndə "yaxşı qız" sözünü önə çəkirlər. Onların anlayışına görə, "yaxşı qız" sosial şəbəkəyə girməz, qısa geyinə bilməz, onun oğlan dostu olmaz, saat 9-dan gec evə gəlməz. Qız uşaqlarını niyə bu qədər sıxırsınız sualına isə, onları qorumaq üçün, deyə cavab verirlər. Kimdən? Nədən? Oğlanlardan? Ancaq düşünmürlər ki, oğlan uşaqlarına gözəl tərbiyə versələr qızların qorumaq ehtiyacları olmayacaqdır. Əgər oğlanlarına yaxşı təlim-tərbiyə versəydilər bu gün qızlar çəkinmədən, qorxmadan istədikləri paltarı geyinə bilərdilər, istədikləri saatda bayırda rahatca, qorxmadan gəzə bilərdilər, istədikləri saatda evə qayıda bilərdilər. Çünki bunlar hər kəsin olduğu kimi qızların da hüququdur.

Qızların düşüncələrinə fikir vermirlər. Nə istəyirlərsə onu edirlər və qızlarının yerinə istədikləri qərarı verirlər: məktəbdən uzaqlaşdırırlar, erkən yaşda evləndirirlər, qəbul etmək istəmirlər ki, qızlar nə etmək istəyirsə bu onların da haqqı, hüququdur. Başa düşmək istəmirlər ki, "kim nə deyər" deyə yaşamırıq biz həyatı. Biz bu həyatda nələrisə öyrənmək, bacarmaq, istədiklərimizə nail olmaq üçün yaşayırıq. Kimin nə dediyi bizim üçün önəmli deyil. "Sən qızsan" deyib qarşımızda durmaqdansa arxamızda durun, bizi dəstəkləyin, nələri bacaracağımızı görəcəksiniz. Əbu Turxanın dediyi kimi: "Qadın üçün keçmişin xatirələri və gələcək haqqında xəyallar önəmlidir, amma onu hərəkətə gətirən bu günün duyğularıdır".

**Tünzalə Əliyeva**
*Kalinin ictimai məktəbinin 11-ci sinif şagirdi*

## NƏSİHƏT



Qız övladları nəsihəti analarından alar demişlər, mənim də qız övladı olduğuma baxmayaraq ən çox təsiredici nəsihətləri mənə atam verib. Atamın bu nəsihəti indiyənə kimi etdiyi nəsihətlərindən daha çox təsir etdi. Hər şey bu cür baş verdi:

Anama çox əsəbləşmişdim. Nənəmgilin bağındakı divara dırmaşmışdım. Anam yanıma gəlmək istəyirdi, ancaq hava yağışlı olduğu üçün yer palçıq və sürüşkən idi. Anam məni hirsli bir səs tonuyla evə çağırdı. "Gəlmirəm!" - deyə ona çığırdım. Anam daha da əsəbləşdi. "Atana zəng edəcəm", - deyərək qışqırdı. Divarın belindən tullanaraq bağın o biri başındakı ağaca tərəf qaçdım. Başımı ağaca söykəyib ağlayırdım, çünki hirsdən ürəyim ağrıyırdı, hıçqırırdım. Çox keçməmişdir ki, atamın maşınla sürətlə evə gəldiyini gördüm. Atam məni səsləyirdi, mənsə cavab vermirdim. Atam məni görəndə yanına çağırdı, sakitcə onun yanına getdim. Heç nə demədi, sakitcə irəli doğru yeridi, mən də onun arxasınca getdim. İkimiz də maşına oturduq. Hərəkətlərim və danışıq tərzim haqqında danışdıq. Anamın maşının içinə baxdığını görəndə "Buradan getsək olarmı?" - deyə soruşdum. Atam "Hara?" - dedi, mənsə "Çölə, heç kəsin olmadığı bir yerə", - deyərək cavab verdim.

Yolda məndən "Məzarlıqdan qorxursanmı", - deyə soruşdu, mən qorxmadığımı dedim. Maşını məzarlıqda əylədi, oranın giriş qapısını açdı, birlikdə içəri daxil olduq. Sonra mənə nənə-babalarımın məzarlarını göstərdi. Onlardan üçünü tanıyırdım: Nizami babamı, Dursun babamı və Fəridə nənəmi.

Dursun babamı uşaqlıqda çox görməmişdim. Atam onun çox vaxt Rusiyada qaldığını dedi. Nizamı babamı tanıyırdım, onu uşaq ikən çox görmüşdüm, 2013-cü ildə vəfat etdi. Fəridə nənəmin vəfatından hələ bir il keçib. Onun 94 yaşı var idi.

Məzarların hamısını göstərdikdən sonra maşına tərəf getdik, atam məzarlığın qapısını bağlayanda məndən soruşdu:

– Səni buraya niyə gətirdim, bilirsənmi?

– Yox, - deyə gözlərimdən yaş axa-axa cavab verdim.

Atam dedi:

– Bax, qızım, burada sənə sadaladığım insanlar mənim doğma əmilərimdir. Mən onlar üçün nə edə bilərəm? Uzağı bir molla cağırıb surə oxutdura bilərəm. Mənim sənə demək istədiyim budur ki, o sənin anandır. Fikirləş... Sabah ya birigün o ölsə sən nə edə biləcəksən? Peşman olmayacaqsanmı?

Sakit durub ağladığımı görəndə dedi:

– Qızım, ananın ürəyi qırılmaz. Görürsən ki, o əsəbləşir, onun könlünü almaq üçün bir şeylər et. Yadından çıxartma ki, bu dünyada heç kim səni anan qədər sevə bilməz.

**Eliza**
*Aşağı Kəpənəkçi ictimai məktəbinin 8-ci sinif şagirdi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK

## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Gətirilən epizodda oğuzlar tərəfindən ənənəvi olaraq qəbul edilən qadın tipi daha aydın şəkildə özünü büruzə verir: O, igid oğuz kimi cıdıra çıxmalı, onun səviyyəsində ox atmalı və ən başlıcası, igidi yıxmağa gücü də çatmalıdır. Ərindən erkən qalxan, ondan öncə atın belinə atılan və ərinə düşməninin vurulmuş başını gətirən həmfikir və dostu tapmaq həyat yoldaşı kimi bəyəniləsidir. Müəyyən olunduğu kimi, qadının estetik-əxlaqi dəyərləndirilməsi bir o boyda gözəlliyi ilə və sədaqətliliyi ilə deyil, eləcə də oğuz bəylərinin şəksiz, qabiliyyət və xüsusiyyətinin olduğu cəngavərlik, igidlik xüsusiyyətləri ilə baş verirdi. Amazonka qadınlarının döyüş qabiliyyəti ilə və istedadı ilə bəzənmiş qadınlar qədim oğuz ənənələrinə uyğun olaraq estetik qavrayışın ideal və praktiki həyatın şah dirəyini təşkil edirlər.

İndi, yenə süjetin inkişafına qayıdaq. Bu dəfə nikaha Banuçiçəyin qardaşı – Dəli Qarçarın maneçilik törətdiyini görürük. Qızı istəməyə gedənləri Dəli Qarçar öldürür. Yardım üçün və vasitəçilik üçün Dədə Qorquda müraciət edirlər. O da razılaşır, amma iki at: keçi başlı Keçər ayğırı, toğlu başlı Turlı ayğırı gətirin, -deyir. İş qaçmağa gələndə birinə minər, birisini də yedəkləyər. Bu kiçik cizgi də yenə qədim oğuz atçapma ənənəsinə işarə edir.

Dədə Qorqud ağzı köpüklənən Dəli Qarçar ilə qısa söhbətdən sonra durmadı, oradan uzaqlaşdı. Dəli Qarçar onun arxasınca düşdü. Qorqud bir atı yorulanda o biri ata sıçrayıb mindi. Lakin Dəli Qarçar ona çatdı. Qılıncını sıyırdı və onun başını yarmaq istəyirdi. Qorqud: "Çalırsan, əlün qurısun!" - dedi. Doğrudan da onun qılınc tutduğu əli yuxarıdan asılı qaldı. Bu zaman o, Dədə Qorquda yalvararaq əlimi sağalt və bacımı Bamsı Beyrəyə verərəm, - dedi. Dədə Qorqud üç dəfə dua eylətdi, günahına tövbə eylətdi. Dəlinin əli sağaldı. Lakin Dəli öz bacısının əvəzinə min maya görməmiş buğra, min qısrağa sıçramayan ayğır, min qoyun görməmiş qoç, min quyruqsuz-qulaqsız köpək və min yetkinləşmiş birə istədi.

Yerinə yetirilməsi demək olar ki, mümkün olmayan bu cür satınalma ayıblı niyyət idi. Halbuki Dədə Qorqud Bayındır xanı Dəlinin tələbi ilə tanış edəndə bu sadalama yenə təkrar olunur, bu da onu göstərir ki, bu sadalama süjetin inkişafı üçün mühüm cizgidir.

Xan Dəli Qarçarın dediklərinə əməl etməyə məcburdur. İlk üçünün yerinə yetirilməsini öz üzərinə götürür, son ikisini isə Dədə Qorqudun yerinə yetirməsini hesab edir. Bu bir daha ondan xəbər verir ki, Dədə Qorqud yalnız ozan deyildir. Doğrudan da, bu epizoda uyğun olaraq o, möcüzə yaradandır, eyni zamanda bacarıq və hiyləgərliyin böyük qabiliyyətini göstərir. Ona qılıncla qalxan əli qurudur və dua ilə onu sağaldır. Lakin bu dəfə mənim üçün o əhəmiyyətlidir ki, onun quyruqsuz-qulaqsız köpəklərin və birələrin toplanılması ilə bəyan olunan üzdəniraq "möcüzəsi" bir növ komik və gülməli mənzərə ilə təsvir olunur.

Aydındır ki, ozan bunu biləndən yaradır, Dəli Qarçarı kinayə ilə acılamaq oxucuda, istərsə də dinləyicidə gülüş doğurur. Qeyd etmək lazımdır ki, bu rəvayətdə başqa yerdə də fəaliyyətdə olan qəhrəman gülüşün gücünə müraciət edir – bu barədə aşağıda danışacağam.

Qısası, Dəli Qarçar Bayındır xanın ayğırlarını, buğralarını və qoçlarını görəndə xoşuna gəlir, lakin itlərə baxanda qəh-qəhə ilə gülür və sonra birələri soruşur. Dədə Qorqud onu birələrin olduğu bir yerə aparır və deyir: "Kökləri özün seç, arıqları su apardı". Sonra Dəli Qarçarı çılpaqladı, ağıla atdı və qapını bağladı. "Birələr Dəli Qarçara üşdilər. Gördi bacarı bilməz, aydır: Mədəd, Dədə! Kərəm eylə, Allah eşqinə qapuyı aç, çıqayın!" - dedi.

Dədə Qorqud rahatca cavab verir: "Qarçar, nə qarğaşa edərsən? Götür, bu ismarladuğın nəsnədir. Noldun, böylə bunaldın? Simüzin al, arıqın qo!".

Dəli Qançar acışmış halda deyirdi: "Hay Dədə Sultan, Tanrı bunun simüzin də alsun, arığın da alsun! Haman bəni qapudan tışarı eylə, mədəd!". Dədə qapuyı açdı. Dəlü Qarçar çıqdı. Dədə gördi kim, Dəlünin canına keçmiş başı qopusı olmuş, gövdəsi birədən görünməz. Yüzi-gözi bəlürməz. Dədənin ayağına düşdi: "Allah eşqinə, bəni qurtar - dedi. Dədə Qorqud "Var, oğul, kəndün suya ur" - dedi. *(D.D.K., səh. 71; D.D.K., səh. 40; O.D.D.K.K., səh. 80).*

Çılpaqlaşdırılmış Dəli Qarçarın birələrin acışdırdığı bu gətirilən epizod, ələlxüsus isə işgəncə verilmiş Dəlinin yalvar-yaxışı və Dədə Qorqudun dinc, rahat, kinayə qarışıq cavabları ən yaxşı komik effekt yaradır ki, bunun da türkdilli qəhrəmanlıq eposunda tayı-bərabərini bilmirəm. Demək olar ki, dolğun kinayə ilə dolu olan bu mənzərənin bənzəri dünya xalqları folklorunda da nadir hallarda rast gəlinir.

Nəhayət, Dəli Qarçar yenə Dədənin sayəsində suya yollanır və birələrdən özünü xilas edir.

Bundan sonra xəyanət və satqınlığı önə çəkən yeni motiv gəlir. Bu epizod oğuzların evlənməsinin qədim adətinin xatırlanması ilə başlayır: "Oğuz zamanında bir yigit ki, evlənsə, ox atardı. Oxu nə yerdə düşsə, anda gərdək dikərdi" *(D.D.K., səh .82; D.D.K., səh. 52; O.D.D.K.K., səh. 93).*

Bu oğuz adəti evlənmə zamanı ox atmaq və bu oxatmadan sonra evlənmək, müəyyən olunduğu kimi, ümumiyyətlə, Şərqin, eləcə də Qərbin xalq folklorunda geniş yayılmışdır.

Bamsı Beyrək də bu cür davranır. Onun atdığı oxun düşdüyü yerdə gərdək qurdurdu. Təminat və nişanə olaraq adaxlısı ərgənlik bir qırmızı qaftan göndərdi ki, bunu da Beyrək geyindi. Yoldaşlarına bu xoş gəlmədi və hirsləndilər. Özlərinin hirslənmək səbəbini də söylədilər: Sən qırmızı qaftan geyərsən, biz isə ağ qaftanda gəzək. Onların hirslənməsi məntiqi olaraq bəraət qazandırıcı deyildir. Qırmızı qaftan nişanlanmaq əlamətidir və buna görə yoldaşları niyə hirslənməli idilər. Lakin göründüyü kimi, burada onların hirslənməsi davranış məntiqi ilə deyil, eləcə də insan üçün adi xüsusiyyət kimi izah olunur ki, bunu da həsəd adlandırmaq olar – "Başqasının sevinci səni kədərləndirirsə, bu həsəddir". Məhz elə bu paxıllığa görə Beyrək xəyanətin qurbanı oldu.

Burada Beyrək necə bir ləyaqətli cəngavərin siması olaraq özünü büruzə verir. O, yoldaşlarını sakitləşdirir və təklif edir: Bu gün mən geyinərəm qırmızı qaftanı, sonra naib və sonra qırx gün ərzində sıra ilə geyərsiniz və nəhayət, qərib dərvişə verək, - dedi.

Lakin tale üzüdönükdür, kafirlərin casusu bunları casusladı və Bayburd qalasının bəyinə xəbər verdilər ki, Baybicən bəy öz qızını Beyrəyə verir və bu gün gərdəyə girir. Bu lənətə gəlmiş də yubanmadan yeddi yüz kafirlə qəflətən gərdəyə hücun etdi və 39 igidlə bərabər Beyrəyi dustaq edərək apardılar.

İşıqlandı, günəş doğdu. Beyrəyin ata-anası gördülər ki, onların oğlu daha görünmür və gərdək də yerlə yeksan edilib. Ahnalə etdilər, yasa batdılar, Beyrəyin yeddi bacısı "ağ çıqardılar, qara donlar geydilər".

Beyrəyin nişanlısı da bu xəbəri eşitdi, ağ qaftanını soyundu, qara qaftanı geyindi və üzünü çıraraq acı-acı ümidinə ağladı. Qısası, oğuz bəyləri yasa batdılar.

16 il keçdi. Beyrəyin ölüsünü-dirisini bilmədilər. Nəhayət, Dəli Qarçar Bayındır xanın divanına gəldi və diz çökərək dedi: On altı il keçdi. Beyrək sağ olsa idi ya özü gələrdi, ya da bir xəbər verərdi. Hansı igid onun diri xəbərini gətirsə, qızılla bəzənmiş paltar-çuxa, altun-aqça verərdim, ölü xəbərini gətirənə bacımı verərdim. Bunu lənətə gəlmiş Yalançı oğlu Yırtacuq eşitdi, Beyrəyin bağışladığı köynəyi qana batırdı və xanın önünə qoydu: Beyrəyi Qara Dərbənddə öldürüblər, bu da onun ölümünün subutu. Köynəyin Beyrəyə mənsub olduğunu Banuçiçəyin yanında yoxladılar. O, köynəyi tanıdı. Payız alması kimi qırmızı yanaqlarını cırdı. Hamı Beyrəyin qayıtması ümidini itirdi. Yırtacuq kiçik düyün eylədi. Böyük toyun da vaxtını təyin etdilər. Yenə bəzirganlar işə qarışırlar və kafirlərin kef məclisi qurduğu, Beyrəyə də qopuz çaldırdıqları Bayburt qalasına gedirlər. Beyrək bəzirganları tanıyır və bəylərin, valideynlərin, öz nişanlısının halını soruşur. Bəzirganlar elə mahnı ilə cavab verirlər. Hamı yaxşıdır, deyirlər. Yalnız sənin Banuçiçəyin kiçik düyün eylədi. Böyük düyünün vədəsini müəyyən edib və əgər vaxtında getməsən Yalançı oğlu Yırtacuq aparacaq.

Beyrək arvad alacağına and içdiyi kafirlərin bəyinin qızının yardımı ilə qaladan çıxdı və yolda otlayan boz ayğırı gördü. O, öz sahibini tanıdı və şaxə qalxaraq kişnədi. Ona minən igid geri qayıtdı. Qalanın qapısına gəldi və qala qoruyucularına öz otuz doqquz igidini əmanət etdi və hədələdi: "Birin əskik bulsam yerinə on öldürəyim, onın əskik bulsam, yerinə yüzin öldürəyim, mərə kafir!"- dedi və atını mahmızladı. Qırx nəfər kafir onun arxasınca düşdü, lakin ona çata bilmədilər. Bu dəfə də Beyrək həqiqi igidə yaraşan hərəkət edir – dostlarını ümidsiz qoymur.

Yolda ona əvvəlcə toya tələsən ozan rast gəlir. Qopuzun əvəzinə atını ona verir. Sonra görür ki, yolda bir neçə çoban ağlayır və durmadan daş yığırlar. Onun gözünə sataşır. Soruşur və məlum olur ki, onlar onun düşmənini daş-qalaq etmək istəyirlər. Onlara xeyir-dua verir və yoluna davan edir. Bu dəfə də çobanların sədaqətli, xəyanət etməyən və etibarlı insanların tipik siması olaraq özünü büruzə verir.

Sonra Beyrək bacılarına baş çəkir və ozan libasında düyünə gəlir. Ənənəyə görə, düyündən öncə oğuz bəyləri bir-birilə oxatma üzrə yarışırdılar. Ox atana Beyrək əlin var olsun deyirdi, lakin kürəkən atanda, əlin qurusun, barmaqların çürüsün, hey, donuz oğlu, donuz, - deyirdi. Sənə düşərmi bu cür sözləri söyləmək? Gəl, mənim yayımı çək, yoxsa başını vuraram, - dedi. Beyrək yayı aldı, çəkdi. Qəbzəsindən yay iki para oldu. Götürüb önünə tulladı. Yalançı oğlu Yırtacuq daha da hirsləndi və gedin, Beyrəyin yayını gətirin, - dedi. Beyrək yayı görəndə, yoldaşlarını andı, ağladı. Nişangah olaraq kürəkənin üzüyünü qoyun, - dedi. Qoydular, nişan aldı, üzüyü ortadan iki böldü. Oğuz bəyləri bunu görəndə əl çalaraq gülüşdülər. Bunu görən Qazan bəy ozanı çağırdı, o da gəldi, Qazanı tərif etdi və şərəfləndirdi. Qazana onun tərifi xoş gəldi və soruşdu ki, məndən nə diləyirsən? Beyrək yeməklər hazırlanan yerə getdi. Özü yaxşıca doyunca yeyəndən sonra oraları alt-üst etdi.

Beyrək zurnaçıları, nağaraçıları qovdu. Bəzisini döydü, bəzisinin başını yardı.

Qazan bəyin xatunu əvvəlcə onun ədəbsizliyini gördü və sonra ondan nə istədiyini soruşdu. Beyrək tələb edir ki, ərə gedən qız qalxsın, oynasın, mən də qopuz çalım.

Burada "Dəli ozanı" məsxərəyə qoymaq istədikləri səhnə yaranır. Onlar ozanın Banuçiçəyi tanımaması ümidi ilə bir xatun, Qısırca yengəni onun əvəzinə buraxırlar. Beyrək onu tanıyırdı və belə oxudu:

***"And içmişəm qısır qısrağa bindigim yoq.***

***Binübəni qazavata varduğum yoq.***
***Eviniz ardında sarvanlar***
***Sana baqar onlar,***
***Buldır-buldır gözlərinin yaşı aqar.***
***Sən anlarun yanına varğıl,***
***Muradını anlar verər, bəllü bilgil!***
***Səninlə mənim işim yoq!***
***Ərə varan qız qalqa,***
***Qol saluban oynaya,***
***Mən qopuz çalam, - dedi"*** *(D.D.K., səh .83; D.D.K., səh. 53; O.D.D.K.K., səh. 94).*

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## SOSİUM

## 13. QIRMIZI FƏNƏRLƏRİN TUTQUN İŞIĞI VƏ YA YALANÇI CƏNNƏT



*(əvvəli ötən sayda)*

Niderland cəmiyyətinin necə yaşadığını, nəylə nəfəs aldığını, hansı dəyərlərə üstünlük verdiyini öyrənmək, dərk etmək və bu ölkə barədə, onun insanları barədə düzgün qənaət çıxarmamız üçün bizim bu ölkəyə təşrif buyurmamız, az da olsa burada yaşamamız, müşahidələr aparmamız gərəkdir. Yəni buranın özündən buraya baxmamız lazım. Biz hərdən Avropaya münasibətdə müxtəlif fobiyalarımıza bürünərək çıxış edirik. Hətta bu fobiyalarımızdan əziyyət çəkmiş kimi də görünürük. Bizim Avropaya can atmamız, Avropaya üz tutmamız bu fobiyalarımızın fonunda baş verir. Afrikadan, Asiyadan, Latın Amerikasından Avropaya axışanların çoxluğu bizim Avropa sevməzliyimizin doğru olmadığının təsdiqi kimi görünür. Bizim avrofob olmamız nədən qaynaqlanır? Bunun bir səbəbi olmalı deyilmi? Bunu bir-iki cümlə ilə anlatmağa çalışacam. Və mənim fikirlərimlə razı olub-olmamanız da sizin öz işiniz. Fikrimcə, bizi avrofob yapan beynimizdə Avropanın əxlaqsız bir obrazının oturuşması ilə bağlı olmalıdır. Zaman-zaman Şərq-Qərb mədəniyyətlərinin fərqli olması, avrosentrizm nəzəriyyəsinin ortaya atılması, İkinci Dünya müharibəsindən sonra “soyuq savaş”ın yaratdığı ideoloji savaş bu obrazın yaranmasında, şəkillənməsində mühüm rol oynamışdır. Bu bir psixoloji haldır və biz bundan imtina etməliyik. Düzdür, Avropada insanlar bizim alışmadığımız bir sıra azadlıqlara malikdirlər. O sıradan da seks azadlığına. Bu azadlıqdan yararlanıb, bunu özünə peşə seçənlər də var. Avropanın İtaliya, İspaniya kimi ölkələrində küçə fahişələrinin olması da bəllidir. Fahişələrin xidmətlərini təklif etdikləri, açıq fəaliyyət göstərdikləri müəssisələr – saunalar, fahişəxanalar da mövcuddur. Bu qədim peşə ilə məşğul olmaq azaddır, şəxsin öz seçimidir, öz istəyidir. Bu da bir biznesdir. Kapitalizm cəmiyyətinə “ver yeyim, ört yatım, gözlə canım çıxmasın” prinsipi yaddır, bu prinsip burada işləmir, heç nəyə yaramır. Kapitalizmdə hər şeyin alınıb-satıldığı məlumdur. Qədim peşəni özlərinə peşə seçənlərin sahib olduqları, bazara çıxarıb sata biləcəkləri əmtəə isə onların bədənləridir. Bədənini müvəqqəti olaraq başqalarının istismarına və ya başqalarına icarəyə verən şəxs bunun qarşılığında aldığı haqla özünün və ailəsinin keçimini təmin edir. Bu adamlara isə ətrafdakılar çox normal münasibət bəsləyərək onlarla qonşuluq edir, dost olurlar. Fahişəliklə məşğul olanlar, bu sektorda çalışanlar kimlərdir? Qırmızı Fənərlər küçəsində gördüklərimə əsaslanıb, fahişəliklə məşğul olanlar arasında ağ, qara, sarı – hər irqdən adamın olduğunu söyləyə bilərəm. Mənim sizə nə yalanım? Bədənini bazara çıxaranlar arasında Şərqi Avropa ölkələrindən gələnlərin daha çox olduğunu da söyləmək olar. Bu, Nidelandın qonşuluğunda yerləşən Almaniyada da, Belçikada da müşahidə edilir. Amersfortda yaşayarkən, seks sektorunda daha çox qeyri-hollandların məşğul olduğunu müşahidə etmişdim və bunu əminliklə söyləyə bilərəm. İnternet üzərindən seks xidmətləri təklif edənlər arasında da hər irqdən, hər dindən olanları aydınca görmək olar.

Niderland 2020-ci ilin yanvarından özünün ikinci adı olan Hollandiyadan imtina etdiyini rəsmiləşdirdi. Bu addan imtinanın bir çox səbəbləri olmamış deyil. Onların arasında “seks” və “narkomaniya cənnəti” imicindən qurtulmaq istəyi də var. Bizim əxlaq normalarımızla tərs gələn “seks” və “narkomaniya cənnəti” kimi təsisatların Hollandiya adı ilə birgəliyi, bu adla assosiasiya olunması ondan imtinanı başa düşülən edir. Qısa kəssəm, Hollandiya adından imtina Niderlandın yeni imicinin dizayn edilməsi ilə nəticələnməlidir. Niderland bununla üzündəki Hollandiya adlı maskadan imtina edərək, öz həqiqi simasını dünyaya göstərmək niyyətindədir. Haydı, düşərli olsun!

Bizim Niderlandda mövcud olan seks və narkomaniya azadlığına buradan, Niderlandın içərisindən qiymət verməmiz üçün gözümüzlə gördüklərimizin, müşahidələrimizin, gəldiyimiz qənaətlərin təqdimatı üçün əsil məqamın yetişdiyini düşünürəm.

Və artıq Qırmızı Fənərlər küçəsinə kiçik bir gəzintiyə çıxmağın məqamıdır. Niderlandı dünyada “seks cənnəti” kimi tanıdan, Amsterdamın lap göbəyində yerləşən bu məkana yol alaq. Nədən ki, Qırmızı Fənərlər küçəsi şəhərin seks simvoludur, seks turizminin mərkəzidir. Buranın təsviri olmadan ələ aldığımız mövzunun yarımçıq qalma ehtimalı da bizim o küçəyə getməmizi tələb edir.

Qırmızı Fənərlər küçəsi Amsterdamın Dam meydanının beş addımlığında yerləşir. Evlərin arasından dar keçidlərdən birbaşa küçəyə çıxmaq mümkündür. Əslində dar keçidlərdə də qırmızı fənərlərin yandığını, öz xidmətini təklif edən seks işçilərinin şüşə vitrinlərə yapışmış bədənlərini görə bilərsən. Qədim Romanın evin qapısında müştərilərini gözləyən, keçənləri yoldan çıxarmaq istəyən doride adlanan fahişələri kimi, burada da fahişələrin müştəri tovlamaq üçün dəridən-qabıqdan çıxdığını görmək olar. Qırmızı Fənərlər küçəsinin atmosferi ora çatmamışdan hiss olunur. Addımbaşı rastına çıxan, müştərilərinə xidmət üçün vaxtın gec olmasına baxmayaraq, hələ də açıq olan restoranlar, kafe-barlar, müxtəlif hədiyyələr, əsasən də erotik aksesuarlar satan dükanların bolluğu diqqətini cəlb edir. Adamların çoxluğu da diqqətdən yayınmır. Qırmızı işıqların, tünd qırmızı pərdələrin get-gedə daha çox nəzərə çarpması Qırmızı Fənərlər küçəsinin lap yaxınlıqda olduğunun xəbərçisidir.

Restoranlardan yayılan müxtəlif qoxular arasında marixuananın başgicəlləndirici qoxusu dərhal hiss olunur. Bu dar keçidlərdə gördüyün mənzərələr – boğuq qırmızı işığa, tox qırmızı pərdəyə bürünmüş hücrələr, geniş şüşə vitrinlər arxasında üzünə-gözünə soyuq-saxta təbəssüm qonduran, küçədən keçən hər kəsə potensial müştəri kimi baxıb, bədənini nümayiş etdirən fahişələr, erotik əşyalarını az qala keçənlərin gözünün önünə düzərək, nə şopinq məqamıdır mesajını verən dükanlar, səssiz-səssiz yürüyən insanlar sanki böyük bir pantomim tamaşasının başlayacağından xəbər verir. İnsanların çoxluğuna rəğmən səssizliyin ətrafdakı hər şeyə hopması səni görünənlərin həmin tamaşa üçün hazırlanmış dekorasiya, adamlarınsa oyunçu olmasına inandırır.

Qayır-qayır qaynaşan insan selinin içərisinə nə zaman qarışdığını belə fərq etmirsən. Ani çaşqınlıqdan sonra artıq Qırmızı Fənərlər küçəsinə gəlib çatdığını fərq edirsən. Küçəni uzununa bölən kanalın hər iki sahili boyunca dolaşan minlərlə insanın arasına sən də qarışırsan. Müxtəlif dillərdə danışan insan selinin yaratdığı uğultu arasında Qırmızı Fənərlərdən yayılıb kanalın sularında bərq vuran işıq mənzərələrinin seyrinə dalıb, ətrafda olanlardan baş çıxarmaq istəyirsən.

Və axına qarışıb küçə boyu dolaşırsan. Artıq fevral gecəsinin qaranlığı şəhərin üzərinə çökmüş, yağan yağış Niderlandın yağmur mövsümü yaşadığını xatırladır. Küçədə dolaşanlar çətirlərinin, burada əksəriyyətin gündəlik istifadə etmək üçün yanlarında gəzdirdikləri yağmurluqlarının altına girmiş, bəziləri də gödəkçələrinin başlıqları altında yağışdan qorunur. Pəncərələrindən qan qırmızısı işıq süzülən, bu işığın altında qırmızılığı daha aydın seçilən pərdələri yana çəkilmiş hücrələr və bu hücrələrin şüşələri arxasında dayanaraq özlərinin gündəlik işlərini icra etməkdə olan fahişələr tamaşa vermək üçün səhnəyə çıxmış kimi görünürlər. Bağlı qapı arxasından boylanan bu yarıçılpaq fahişə qadınlar müştəri tutmaq üçün küçədə dolaşanları seyr etməkdədirlər. Başqa çıxış yolu da görünmür. Həm hücrənin kirayəsini ödəmək, həm qazanmaq, həm də dövlətə vergi vermək tələbi var. İstəməsə belə o, müştəri cəlb etməli, ona xidmət göstərməli və əvvəlcədən sövdələşdiyi məbləği almalıdır. Hücrələrin qapısı içəridən açılır. Bu da fahişələrin təhlükəsizliyi üçün düşünülmüş bir yöntəmdir. Bəs nə bilmişdiniz? Ölkənin qanunları kimliyindən asılı olmayaraq, hamını qorumağa borcludur.

Şüşə vitrinlərin arxasında dayanmış bu canlı manikenlərə adi bir eksponat və ya əmtəə kimi baxıb keçənlər arasında onları mimikası ilə, əl-qol hərəkəti ilə təhqir etmək istəyənlər də az deyil. Onların ağrıları, makiyajlarının arxasında gizlətdikləri yorğunluq heç kimin eyninə də deyil. Turistlər bura bunları düşünmək üçün də gəlməyiblər. Dincəlməyə, əylənməyə gəldikləri də bəlli. Nə etməli? Bu yolu seçənlər onun məşəqqətlərinə də dözməli deyillərmi? Hər işin öz çətinliyi var demirlərmi? Bir də düşünürsən ki, soyunublarmı cəhənnəmə soyunsunlar, qara yola soyunsunlar. Bunun da dərdini çəkəsi deyilik ki? Bundan ötrü qaramı bağlayacağıq? Turistlərin əksəriyyətinin bu cür düşünməsi təbiidir.

Fahişələr üzlərində süni təbəssüm, öz soyuq baxışları ilə hər hücrənin qarşısında daha da tündləşən qırmızı işıqların altında qaynaşan adamlar arasından öz müştərilərini axtarmaqdadırlar. Onların baxışlarındakı soyuqluq şikarı üzərinə atılmağa hazır olan yırtıcının baxışlarını xatırladır. Bəzilərinin üz-gözündə xoşbəxtliyə, sevincə bənzəyən təbəssüm də sezmək olur. Bu da onların gün ərzində müştərilərinin bolluğu ilə əlaqədar olmalıdır. Müştəri ilə sövdələşmənin baş tutduğunu, hücrə sahibinin artıq müştəri mingirləyə bildiyini hücrələrin qapalı pərdələrindən anlaya bilərsən.

Qırmızı Fənərlər küçəsinin özəlliyi təkcə fahişələrin sərgisi ilə məhdudlaşmır. Burada teatrlaşdırılmış seks səhnələrinə baxmaq üçün xüsusi əyləncə yerləri də yaradılıb. Striptiz barlar, porno teatrlar. Bunun üçün əlini cibinə salmaq, pul xərcləmək lazım olduğunu da bilməlisən. Əslində elə bunlar turistlərin cibini tərs üzünə çevirmək üçün düşünülüb. Bu küçənin mahiyyətini tam anlamaq üçün xüsusi müəssisədə ora-burasını – bədəninin intim yerlərini təbəssümlə nümayiş etdirən pornoulduza 10-12 nəfərin ayrı-ayrı kabinələrdən eyni vaxtda tamaşa etmək imkanı var. Cəmi iki dəqiqə çəkən bu göstəri ucuz başa gəlir. Aşağı-yuxarı 2 avro. Sözarası deyim ki, istənilən fahişənin üzündəki təbəssümün yapışdırma-süni olması həmin an hiss edilir. Onların keflərindən qımışmadığı dərhal anlaşılır. Bir də düşünürsən ki, bu saxta təbəssümlər haradasa hazırlanır, mağazalarda hazır satılır, fahişələr də 5-10 avro verib alır və üzlərinə yapışdırırlar. Lazım gəldikdə də yeniləyirlər. Texnologiya əsridir, nə desən çıxar. Məsələn, mağazaya girib satıcıya deyirsən: “Zəhmət olmasa mənə beş avroluq təbəssüm ver”. O da soruşur: “Hansından? Çin malımı, Avropa istehsalımı?”. Burada hər cür erotik zir-zibil satılan mağazaların bolluğu sənin bu cür düşünmənə səbəb olur.

Qırmızı fənərli hücrələrdən süzülən işıq qarşıdakı kanalın sularında çəhrayı rəngdə əks olunur. Gecə olmasına rəğmən turistlərin verdiyi müftə qonaqlığa başı qarışıb yuvasına dönmək istəməyən ququşu cütlüyünün bəyaz tükləri də çəhrayı rəngə bürünüb. Fahişələrin müştəriləri, elə müştərilər də onlardan geri qalmırlar, əlcək kimi dəyişdiyi bu məkanda sadiqlik rəmzi, monoqamiya ilə bir-birinə bağlı olduğu, “getmə gözümdən, gedərəm özümdən” fəlsəfəsinin qanadlı versiyasını yaşadan, biri öldükdə o birinin də intihar etdiyi barədə əfsanələr dolaşan qu cütlüyünün burada olması çox ilginc təsir bağışlayır. Qu ailəsi bəlkə Qırmızı Fənərlər küçəsində dolaşan insanlara ilahi bir mesajı öz quş dilləri ilə çatdırmaq üçün göndərilib? Nə bilmək olar bu dünyanın işlərini?

P.S.

Koronavirusla bağlı Niderland hökumətinin təxirəsalınmaz tədbirlər gördüyü barədə tez-tez xəbərlərə rast gəlirdim. Rastlaşdığım xəbərlərdən biri diqqətimi daha çox cəlb etdi. Xəbərdə Niderlandın həm iqtidar, həm də müxalif partiyalarının birləşərək fahişələrə, hollandların təbiri ilə desək, seks işçilərinə sosial yardım göstərilməsi üçün hökumətə təkliflər paketi təqdim etmələrindən bəhs olunurdu. Təkliflərdə seks işçilərinin koronavirus səbəbindən müştərilərini internet üzərindən evlərində qəbul etdikləri, buna gəlirlərinin azalması və dolanışıqlarının çətinləşməsi ucbatından məcbur olduqları, bunun isə onların həyatını təhlükəyə atdığı əsaslandırılırdı. Onların əsas peşələri olan fahişəlikdən müvəqqəti də olsa uzaq tutulması, onları alternativ işlərə yönləndirməyin daha doğru yol olduğu da həmin paketdə təklif edilirdi. Əslində bu xəbərdə mənim üçün fahişələrə yardımın edilib-edilməməsi maraqlı deyildi, maraqlı olan üç partiyanın cəmiyyətin bu təbəqəsinin qayğısına qalması təşəbbüsü idi. Bax, budur sosial dövlət. Dövlət fahişəsinə də sahib durmalıdır.

P.P.S.

Niderlandda fahişəliyin qanunilәşdirilməsinə, seksin azad olmasına, əhalinin cinsi fəallığının yüksəkliyinə baxmayaraq, HİV/QİÇS xəstələrinin sayı ölkə əhalisinin 0,2 faizinə bərabərdir. Bunun isə nə qədər kiçik bir rəqəm olmasını söyləməyə belə gərək yox.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**

Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

15 MAY 2022-Cİ İL
№ 009 (156)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ "ახალი ლიგი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## QARDABANİ GƏNCLƏR MƏRKƏZİNDƏ KARİKATURA YARIŞMASININ QALİBLƏRİ MÜKAFATLANDIRILIBLAR



Qardabani Gənclər Mərkəzində Gürcüstan Yaşılay Cəmiyyətinin "Sağlam yaşam, sağlam gələcək" adlı karikatura yarışmasının yekun tədbiri keçirilib.

**1-ci yerə Bolnisidən Turanə Süleymanova, 2-ci yerə Marneulidən Hənifə Nəsibova və 3-cü yerə Qardabanidən Sina Həsənova layiq görülüb.**

Tədbirdə Qardabani Gənclər Mərkəzinin icraçı direktoru Hacı Bəkiroğlu, Qardabani Gənclər Mərkəzinin sədri Elsevər Əhmədov, "Beez" Uşaq Teatrının bədii rəhbəri Binəli İslamoğlu, "Yeni Yol" qəzetinin redaktoru Azər Musaoğlu, Gürcüstan Yaşılay Cəmiyyətinin layihə koordinatoru Həcər Mustafayeva, Nəzərli ictimai məktəbinin müəllimi Elmar Eminov, müsabiqə iştirakçıları, mərkəzin nəzdində fəaliyyət göstərən dil kurslarının tələbələri və valideynlər iştirak ediblər.

Gürcüstan Yaşılay Cəmiyyətinin müdiri İsa Xəmmədov iştirakçıları salamladıqdan sonra sözü cəmiyyətin sədri Zviad Koçalidzeyə verib. Z.Koçalidze cəmiyyətin fəaliyyətləri haqqında ətraflı məlumat verdikdən sonra İ.Xəmmədov "Zərərli vərdişlər və onların qarşısının alınması" mövzusunda təqdimat keçirib.

Tədbirin sonunda müsabiqədə iştirak edənlərin karikaturalarından hazırlanmış videoçarx nümayiş olunub və ilk 3 yerin qaliblərinə təşəkkürnamə və pul mükafatı, digər iştirakçılara isə sertifikatlar təqdim olunub.

## RƏYİ SORUŞULANLARIN 54 FAİZİ SOVET DÖVRÜNDƏKİ YAŞAYIŞ SƏVİYYƏSİNİ MÜSBƏT QİYMƏTLƏNDİRİB

"Zinc Network" şirkətinin sifarişi ilə "CRRC Georgia" tərəfindən USAID-in maliyyə dəstəyi ilə Gürcüstanda "Keçmiş sovetlər birliyindən razısınızmı" sorğusu keçirilib. Məqsəd əhalini yanlış informasiyadan qorumaq və informasiya mühitini yaxşılaşdırmaq olub.

"İnformasiyanın etibarlılığının artırılması proqramı" çərçivəsində keçirilən sorğu iştirakçılarının **54 faizi sovet dövründəki yaşayış səviyyəsini müsbət qiymətləndirib**.

Rəyi soruşulanların 52 faizi hesab edib ki, Gürcüstandakı mövcud vəziyyətlə müqayisədə sovet dövründə onlara daha yaxşı qayğı göstərilirdi.

Yalnız 14 faiz sovetlər dövrünü çox mənfi qiymətləndirib, 24 faiz isə nisbətən mənfi qiymətləndirib. 9 faiz respondent isə suala cavab verməyib.

2021-ci il noyabrın 16-dan dekabrın 14-dək keçirilən sorğuda yaşı 55-dən yuxarı olan 3 024 nəfər iştirak edib.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 33,4 FAİZ ARTIB




Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, cari ilin yanvar-aprel ayları ərzində Gürcüstanın xarici ticarət dövriyyəsi 2021-ci ilin eyni dövrü ilə müqayisədə 33,4 faiz artaraq 5,3 milyard ABŞ dollarına çatıb.

Bildirilir ki, hesabat dövründə idxalın həcmi 3,7 milyard dollar təşkil edib, bu da 2021-ci illə müqayisədə 34 faiz çoxdur. İxracın həcmi isə keçən ilin müvafiq dövrü ilə müqayisədə 32,8 faiz artaraq 1,6 milyard dollar təşkil edib. Xarici ticarətdə 2,1 milyard dollar həcmində mənfi saldo yaranıb.

## TBİLİSİLİ TARZƏN İSPANİYADA BİRİNCİ YERƏ LAYİQ GÖRÜLÜB



Gürcüstan İspaniyanın Lloret de Mar şəhərində keçirilən "Fiestalonia Millenio" beynəlxalq incəsənət festivalı və müsabiqəsində iştirak edib.

10-dan çox ölkədən olan yeniyetmə və gənc istedadların qatıldığı tədbirdə Gürcüstanı "İmedi" rəqs ansamblı, vokalçılar və tarzən Ramin Pirməmmədov təmsil ediblər.

Tbilisidən olan R.Pirməmmədov festivalın müsabiqə hissəsində "Çahargah rapsodiyası"nı, qala konsertdə isə "Despacito" ispan mahnısını ifa edib. Tamaşaçılar məşhur mahnının çox fərqli və unikal versiyasını alqışlarla qarşılayıblar.

İfadan sonra münsiflər heyəti və tamaşaçılara tar barədə məlumat verilib, alətin YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edildiyi bildirilib.

***R.Pirməmmədov müsabiqənin instrumentalistlər nominasiyasında I yerə layiq görülüb.***

Gürcüstan kollektivi festival iştirakçıları arasında II yeri tutub.

Qeyd edək ki, 19 yaşlı tarzən hazırda İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Hüquq fakültəsinin I kurs tələbəsidir. O, Gürcüstanda yeganə tar ifaçısı kimi tanınır.

## GÜRCÜSTAN VƏ ABŞ ARASINDA BİRBAŞA UÇUŞLAR TƏŞKİL EDİLƏCƏK



Gürcüstandakı Amerika Ticarət Palatasının vitse-prezidenti İrakli Baidaşvilinin bildirdiyinə görə, Gürcüstan və ABŞ arasında birbaşa uçuşlar təşkil ediləcək.

Onun sözlərinə əsasən, uçuşlara bu ilin sonunda və yaxud gələn ilin əvvəlində başlanılacağı gözlənilir.

İ.Baidaşvili qeyd edib ki, birbaşa aviaəlaqə Gürcüstana imkanlı amerikalı turislərin cəlbinə kömək edəcək.

Gürcüstan ABŞ-la birbaşa uçuşlarla bağlı danışıqları 2019-cu ildən aparır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.